# Təlim rus dilində olan məktəblərin Azərbaycan dili problemi

**Araşdırma**

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*
n.rahimov@muallim.edu.az

Oxucularımıza yaxşı məlumdur ki, qəzetimizdə vaxtaşırı olaraq təhsilimizin müxtəlif sahələri üzrə araşdırma yazıları dərc edirik. Bu yazılarda müxtəlif problemləri müzakirəyə çıxarır, mövzu ilə bağlı mütəxəssislərin fikirlərini ictimaiyyətə təqdim edirik. Budəfəki yazıya ulu öndər Heydər Əliyevin 2001-ci ildə Bakıdakı 6 nömrəli məktəbdə səsləndirdiyi bir fikirlə başlamaq istəyirəm: "İndi biz müstəqil dövlətik. Bizim dövlət dilimiz, ana dilimiz Azərbaycan dilidir. Tədris hər yerdə Azərbaycan dilində getməlidir. Ancaq o yerlərdə ki, rus əhalisi üçün, yaxud bəzi rusdilli insanlar üçün tədris rus dilində gedir, orada mütləq Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı tədris edilməlidir". Yəqin oxucularımıza da məlum oldu ki, mövzumuz ölkəmizdə hələ ötən əsrdən qalmış bir problem – təlim rus dilində olan məktəblərdə şagirdlərin bir hissəsinin doğma dilimizi bilməməsi, Azərbaycan dilinin qrammatikasına və şifahi nitqə kifayət qədər yiyələnmə səviyyəsinin qənaətbəxş olmaması ilə bağlı problemdən ibarətdir. Bəs bunun əsas, köklü səbəbləri nədir? Məsələnin tarixi kökünə nəzər salsaq görərik ki, XVIII əsrin sonundan başlayaraq Rusiya İmperiyasının Azərbaycanda apardığı işğalçılıq siyasəti təkcə Azərbaycanda deyil, ümumiyyətlə Cənubi Qafqazda rus dilinin əhəmiyyətini artırmışdır. Belə ki, rus dili həm dövlət, həm də ünsiyyət dili kimi özünə yer etmişdir. Nəticədə azərbaycanlılar istər-istəməz bu dili öyrənmək məcburiyyətində qalmışlar. Sovetlər Birliyi dövründə də bu hal davam etmiş və azərbaycanlılar 200 ildən artıq bir müddətdə bu dildən istifadə etməyə məcbur olmuşlar. Qısa desək, rus dilini bilməyənlər nəinki rəsmi dövlət idarələrində, adi gündəlik həyatdakı ünsiyyət məqamlarında belə bir çox hallarda ciddi çətinlik və baryerlərlə üzləşmişlər.

Bundan başqa, XIX əsrin ortalarından başlayaraq Azərbaycanda ilk məktəblərin, dərslik və kitabların rus dilində olması bu dilə istər-istəməz marağı artırmışdır. Lakin respublikamız müstəqillik qazandıqdan sonra bu məsələyə xüsusi önəm verən ulu öndər Heydər Əliyev sadaladığımız məcburiyyətlərin tamamilə aradan qaldırılmasına nail olmuşdur. Ancaq bütün bunlara baxmayaraq, bəzi həmyerlilərimiz uzun illər bu dildə təhsil aldıqları üçün ailədaxili ünsiyyəti də rus dilində aparmışlar. Bu səbəbdən də belə ailələrdə böyüyən uşaqlar doğma dillərində ünsiyyət qurmaqda çətinlik çəkirlər ki, bu da məktəblərdə dövlət dilinin tədrisində əlavə problemlər yaradır. Beləliklə, rusdilli məktəblərin şagird kontingentinin çoxunu azərbaycanlılar təşkil etsə də, onların bir hissəsi ana dilimizi bilmir, adi ünsiyyət zamanı ciddi çətinliklərlə üzləşirlər. Bəs görəsən, tədris müəssisələrində bu məsələnin aradan qaldırılması istiqamətində hansı işlər görülür? Axı bizim təhsilimizin əsas məqsədi, ilk növbədə, ölkəmizə layiqli, vətənpərvər övladlar yetişdirməkdən ibarətdir. Ana dilini bilməyən şəxslərdə vətənpərvərlik ruhundan danışmaq olarmı? Etiraf edək ki, bu gün şagirdlərimizin rus dilini bilməsi onlara iş və şəxsi həyatlarında geniş imkanların yaranmasına gətirir. Bundan başqa, xarici dil bilikləri çox olanlar cəmiyyətdə də özlərinə yaxşı yer tuturlar. Bu baxımdan bir neçə xarici dil bilmək yaxşı hal hesab olunur. Amma bir şərtlə ki, öz dillərini, yüz illərlə bağlandığımız tarixi köklərini, milli dəyərlərimizi unutmasınlar. Uzun illər əvvəl Azərbaycanın bir çox tanınmış mütəfəkkirləri, siyasi xadimləri, şairləri, yazıçıları olan Mirzə Cəlil, Üzeyir Hacıbəyov, Həsən bəy Zərdabi təhsillərini rus dilində alıblar. Ancaq yəqin ki, bu insanların ana dillərinə nə qədər bağlı olduqları, böyük önəm verdikləri hamımıza məlumdur. Məhz budəfəki araşdırmada da əsas məqsədimiz tədris rus dilində aparılan məktəblərdə şagirdlərin öz ana dillərini hansı səviyyədə mənimsəyə bilməsini üzə çıxarmaqdır. Tədris rus dilində aparılan məktəblərdə Azərbaycan dilinin tədrisi ilə bağlı mövcud vəziyyəti öyrənmək məqsədilə paytaxtın bir sıra orta ümumtəhsil məktəblərində olduq. Rus bölmələrində Azərbaycan dilinin tədrisi ilə bağlı dərslərdə iştirak etdik.

